BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# SƏFƏVİ-RUSİYA DÖVLƏTLƏRİ ARASINDA QARŞILIQLI MÜNASİBƏTLƏR (XVI ƏSR)

**A.B.BAXŞƏLİYEV**
***Sumqayıt Dövlət Universiteti***
***elfe@box.az***

*Məqalədə XVI əsrdə Səfəvilər dövləti ilə Rusiya dövləti arasında qarşılıqlı münasibətlər tədqiq olunan dövrün mənbələri əsasında araşdırılır. Xüsusilə, Kazanın və Həştərxanın Rusiya tərəfindən işğalına qədərki və işğalından sonrakı qarşılıqlı münasibətlərinə aydınlıq gətirilir. Volqa-Xəzər boyunca həyata keçirilən Səfəvi-Rusiya ticarət əlaqələri öyrənilir.*

Azərbaycanla Moskva arasında qarşılıqlı münasibətlər əski çağlardan mövcud olmuşdur. Bu barədə italiyalı səyyah Ambrocco Kontarinin gündəliyində maraqlı məlumatlar vardır. 1475-ci ildə Uzun Həsənin Moskvaya göndərdiyi elçi də Kontarini ilə Həştərxana yola düşmüşdü. İtaliyalı səyyahın yazdığına görə, Dərbənddən Həştərxana üzdükləri gəmidə 35 nəfər olmuşdur ki, onların çoxu da rus və tatarlardan xəz almaq üçün xam ipək aparan tacirlər idi [4, 117-118]. Bu fakt Azərbaycanla Rusiya arasındakı əlaqələrin mövcud olduğunu göstərir. Kontarini Azərbaycanla Moskva arasında qarşılıqlı ticarət əlaqələrini tənzim edən Həştərxanın qədim zamandan iqtisadi əhəmiyyətə malik böyük şəhər olmasından danışır və şəhərin XV əsrdə tənəzzül etdiyini qeyd edir. Səyyah həmçinin göstərir ki, şəhərin tənəzzülə uğramasına baxmayaraq şəhər bazarında ədviyyat və müxtəlif ticarət malları satılırdı. Bu malların bir qismi Donun mənsəbindən Tanaisə alınıb aparılırdı [10, 8].

1395-ci ildə Həştərxanın Qızıl Orda xanı Toxtamışla savaşda Əmir Teymur tərəfindən tutulması, onun iqtisadi nüfuzuna, heç şübhəsiz ki, mənfi təsirləri olmuşdu. Buna baxmayaraq şəhər Asiya ilə Avropa ölkələri arasındakı iqtisadi ticarət əlaqələrinin əsas mərkəzlərindən biri kimi öz əhəmiyyətini qoruyub saxlaya bilmişdi. Şəhərin iqtisadi nüfuza malik olması onun şərqlə qərbi əlaqələndirən tranzit ticarət yolu üzərində yerləşməsi ilə əlaqədar idi. Həştərxanın IV İvan Qroznı (1547-1584) tərəfindən işğalına qədər burada fəaliyyət göstərən yarmarkada Azərbaycan tacirləri üstünlük təşkil edirdilər. Bu yarmarkaya rus gəmiləri ilə duz və başqa mallar almağa gəlirdilər. Ancaq uzun illər Moskva ilə Həştərxan arasındakı ticarət əlaqələrinə Qızıl Orda xanları ciddi maneçilik törədirdilər. 1461-ci ildə mitropolit İohan Kazana göndərdiyi adamlarının himayə olunmasını xahiş edir və yada salırdı ki, Moskvaya ticarət üçün gələn tatar tacirlərinə o həmişə xeyirxahlıqla yanaşmışdır. Mitropolitin bu xahişi Moskva tacirlərinin Həştərxanla yanaşı, Kazanla da ticarət etdiklərini və Asiya mallarını bu şəhərlərin bazarlarından aldıqlarını sübut edir [10, 9].

1552-ci ildə Rusiya Kazanı işğal etdikdən sonra Volqa-Xəzər yolunun böyük

bir hissəsini ələ keçirib, burada nəzarətini möhkəmləndirə bilmişdi. Ancaq bu zaman öz müstəqilliyini qoruyub saxlayan Həştərxan xanlığı qeyd olunan karvan yolu ilə Rusiyanın Şərqlə əlaqələrinə müəyyən dərəcədə maneçilik yaradırdı. Bu xanlığın ərazisi çox geniş olub, mərkəzi şəhəri, əskidən bəri, ticarət əhəmiyyəti kəsb edirdi. Şəhər Rusiyanın Səfəvi dövləti ilə qarşılıqlı iqtisadi əlaqələrində də əsas rol oynayırdı. Ancaq Həştərxanın sərbəstliyi Moskva dövlətinin mənafeyinə uyğun deyildi. Bu zaman Həştərxan xanlığı yaxın qonşularının, demək olar ki, hamısının diqqətini özünə cəlb edirdi. Belə ki, krımlılar, çərkəz və noqoylar hər bir əlverişli şəraitdən istifadə edərək Həştərxan üzərində öz təsirini bərqərar etmək, hakimiyyətə öz namizədlərini gətirmək və bu yolla böyük çayın ağzını ələ keçirmək istəyirdilər [9, 2]. Həştərxanın ticarət əhəmiyyətinə çox böyük qiymət verən Moskva hökuməti buraya daha çox can atırdı. Bu vaxt Həştərxana müdaxilə etmək üçün əlverişli vəziyyət meydana gəldi. Krım xanı Dövlət Gireyin və Noqay xanı Yusifin köməyinə ümid bəsləyən Həştərxan xanı Yomğurçay Moskva səfirinin şərəfinə toxunmuş və onu həbsxanaya salmışdı. Buna görə də, 1554-cü ildə IV İvan Həştərxana knyaz Pronski başda olmaqla qoşun göndərdi. 1539-cu ildə Həştərxanda hakimiyyətə gəlmiş Yomğurcay xanı ruslar Noqay tatarlarının köməyi ilə 1554-cü ildə taxtdan uzaqlaşdırdılar. 1556-cı ildə isə Rusiya qoşunları ardı-arası kəsilməyən hücumlarla Həştərxanı işğal edə bildilər. Qoşun yaxınlaşarkən Yomğurcay şəhərdən qaçır və rus qoşunu maneəsiz şəhəri işğal edir, taxta öz tərəfdarı Dərviş Əlini çıxarır. Lakin tez bir zamanda Moskvaya həyəcanlı şayiələr gəlməyə başladı ki, yeni hakim Krım ilə əlaqəyə girib və çara (rus çarına) xəyanət edir. Həştərxana qarşı yeni qoşun göndərildi, ancaq onlar hakimi şəhərdə tapmadılar, çünki Dərviş Əli tələsik dənizə qaçmışdı. Rusiya Həştərxanı işğal edərək, qaçqın xanı yaxalayıb, tatar murzaların xəyanəti nəticəsində xanlığın qoşununu darmadağın etdilər. Məğlub olan xan əvvəlcə Azova və sonra oradan Məkkəyə qaçdı [9, 219-220]. Tatar xanlarının vassal asılılığına ümidini itirən IV İvan Qroznı Həştərxanı öz dövlətinə birləşdirməyi qərara alır. Çarın buyruğu əsasında xanlığı tərk etmiş sadə adamlar, sonra knyaz, murza və ruhanilər öz yerlərinə qayıtdılar. Onların hamısı Moskva çarına sədaqət andı içdilər. Moskvadan başçı göndərilmiş voyevoda Çeremisinov onların mülklərini «köhnə qayda» ilə özlərinə qaytardı. Beləliklə, 1557-ci ildə Həştərxan xanlarının müstəqilliyinə qəti olaraq son qoyuldu [10, 9-10].

Kazan və Həştərxanın işğalı Moskva dövləti üçün Səfəvilərlə ticarət nöqteyi-nəzərindən çox önəmli idi. Çünki bu, ölkəni Xəzər dənizinə yaxınlaşdırır və onun əlinə Şərq ticarətinin açarını verirdi. Rusiya tacirlərinin Həştərxandan Moskvaya qədər yolda qarşılaşdığı çox böyük çətinliklər aradan qaldırıldı. Artıq Həştərxanın işğalından az sonra bura Şamaxıdan, Dərbənddən səfirlər gəlir və ticarət əlaqələrinin şərtləri haqqında Rusiyanın buradakı məmurları ilə sövdələşirdilər. Beləliklə, Rusiyanın Həştərxanda hakimiyyətinin bərqərar olması və gediş-gəlişin təhlükəsizliyinə artan ümid, Moskva ilə müxtəlif Azərbaycan şəhərləri arasında ticarət mübadiləsinin güclənməsi tendensiyasına səbəb oldu [9, 40-42]. Rusiya Kazan və Həştərxanı tutduqdan sonra Xəzərə doğru irəliləyirdi. Xəzərin şimal sahillərini tutub, şərq bazarına çıxmaq istəyirdi. Bu zaman Səfəvi dövləti də Volqa-Xəzər yolu vasitəsilə Avropa dövlətləri ilə diplomatik və ticarət əlaqəsi saxlayırdı. 1561-ci ildə I Şah Təhmasib (1524-1576), 1563-cü ildə isə Şirvan bəylərbəyi Abdulla xan bu yolla Moskvaya elçilər göndərmişdi. Rusiya çarı IV İvan 1569-cu ildə Aleksey Xoznikovun başçılığı altında Qəzvinə elçilər göndərdi. Onlar I Şah Təhmasibə 100 top və 500 tüfəng

gətirmişdilər. Rusiya bir tərəfdən Səfəvilərlə əlaqələrini gücləndirir, digər tərəfdən isə Xəzərə doğru irəliləyərək yeni torpaqlar zəbt edirdi [1, 391].

Bu dövrdə Həştərxanın ilk voyevodası olan Çeremisinov baş verə biləcək təhlükədən ehtiyat edərək Həştərxanın doqquz verst aşağı hissəsində bir təpə üstündə taxta (ağac) divarla, səngərlə, xəndəklə əhatə olunan yeni şəhərin əsasını qoydu. İnzibati idarənin yerləşdiyi yeni şəhər, tezliklə, ticarət mərkəzinə çevrildi [10, 11]. Həmin voyevodanın (başçının) məlumatına görə dənizin o tərəfindən buraya müxtəlif məhsullar alması üçün çoxlu tacirlərlə yanaşı, həmçinin kifayət qədər rus tacirləri də gəlirdilər. İngilis ticarət şirkətinin nümayəndəsi Antoni Cenkinsonun nəql etdiyinə görə Çeremisinovun özü də bu şirkətlə əlaqəli idi. O, Moskva çarının icazəsi ilə Buxaraya, bu ölkənin İngiltərə ilə ticarət əlaqələrini yaratmaq üçün yola düşmüşdü. Cenkinson Həştərxandan keçən yollarla aparılan Rusiya-Səfəvi ticarətini belə xarakterizə edir: «Burda (Həştərxanda) ticarət də mövcuddur, ancaq elə məhdud və cüzi miqdardadır ki, qeyd etməyə dəyməz; hər halda buraya müxtəlif yerlərdən tacirlər gəlir. Rusların bura gətirdikləri ən əsas mallar - yəhərlər, yüyənlər, bıçaqlar və buna bənzər bəzək-düzəklər, çörək, donuz əti və digər mallardır. Tatarlar isə pambıqdan, ipəkdən və yundan düzəldilmiş müxtəlif mallar gətirirdilər: Səfəvi ölkəsindən, daha dəqiq Şamaxı şəhərindən ipək saplar, Rusiyada istifadə edilən boyalar, kəmər üçün rəngbərəng ipəklər, zirehlər, kamanlar, qılınclar, bəzən taxıl, qoz və s. gətirilirdi. Lakin bütün bunlarla yanaşı, ticarət əməliyyatları olduqca məhdud miqdarda idi. Çünki yerli ticarət o qədər cüzi və kasıbdır ki, qeyd etməyə və ticarət əlaqələri qurmağa dəyməz» [7, 192; 8, 41]. Antoni Cenkinson şəhərdə yerli ticarətin zəifliyini Xəzər dənizində gəmilərin azlığı, limanların münasib olmaması, yerli əhalinin də yoxsulluğu ilə yanaşı, Səfəvi mallarının əsasən Suriya təriqi ilə Aralıq dənizinə çıxarılması ilə əlaqələndirərək, hətta bu şəhərdə ticarət əlaqələrinin qurulmasını sanki məsləhət bilmir. Ancaq Şərqə gedən karvan yollarında portuqal və Aralıq dənizi hövzəsindən keçən yollarda isə Osmanlı ağalığı Volqa-Xəzər karvan yolunun XVI yüzildə iqtisadi-ticarət əhəmiyyətini xeyli dərəcədə artırmışdır. İngilis dövləti Rusiyanın razılığı ilə Volqa-Xəzər yolu vasitəsilə Səfəvi dövləti ilə davamlı ticarət əlaqəsi yaratmağa çalışırdı. O, öz dövlətinin həm Suriyada, həm də Şərqdə iqtisadi maraqlarının təmsilçisi olan Anton Cenkinsonun da gündəliyindən göründüyü kimi, qeyd olunan şəhərlərin iqtisadi ticarət imkanlarına olduqca mükəmməl bələd olmuşdur. Ancaq gündəliyindəki birtərəfli məlumatlar faktiki olaraq Volqa-Xəzər yolunda ingilis-rus rəqabətinin yaranması ilə əlaqədar olmuşdur [7, 192; 8, 41]. Cenkinsonun yazdığına görə Səfəvi dövlətinin əsas ticarət malları Suriyadan Aralıq dənizinin Avropa sahillərindəki limanlarına aparılırdı. Onun fikrincə, Xəzər dənizində Səfəvi gəmilərinin azlığı, bazar və limanların məhdudluğu, əhalinin kasıblığı Volqa-Xəzər yolu boyunda yerləşən şəhərlərin ticarətini zəiflətmişdi. Cenkinson Həştərxanda Şamaxıdan olan tacirlərə onların məhsullarının əvəzinə mahud təklif etmişdi, lakin onlar razılaşmadılar, çünki onların ölkəsində bunu çox ucuz qiymətə almaq mümkün idi (o, mahudun bir topunu 6 rubla istəyirdi) [5, 172].

Lakin biz Cenkinsonun Volqa-Xəzər boyunca həyata keçirilən Səfəvi-Rusiya ticarətinə verdiyi qiymətlə tam razılaşa bilmərik və onun səmimiyyətinə şübhə ilə yanaşırıq. Bu ingilisin Moskva ilə Səfəvi dövləti arasında ticarətin məhdud və əlverişsiz olması haqqındakı fikrini, onun özünün və digər ingilis səfirlərinin nəyin bahasına olursa-olsun Moskva dövləti vasitəsilə Orta Şərqdə ticarəti ələ keçirmək

istəyini inkar edir. Əgər Cenkinson dediyi kimi, bu ticarət həqiqətən belə cüzi idi, onda nə üçün ingilislər belə təkidlə Volqa-Xəzər yolunu, burada ticarət əməliyyatını ələ keçirməyə səy göstərirdilər. Ancaq O.Əfəndiyevin qeyd etdiyi kimi, Volqa-Xəzər yolunun mənimsənilməsinin təşəbbüsçüləri ilk vaxtlar Moskvadan yardım görən ingilis tacirləri oldular [2, 217]. İngilislər 1555-ci ildə Moskvada «Moskva şirkəti»ni yaratdılar. Şirkətin nümayəndəsi Antoni Cenkinson 1561-ci il 14 martda Londandan çıxıb və 20 avqustda kraliça Yelizavetanın Rusiya çarına ünvanlanmış məktubu ilə Moskvaya gəlir. Məktubda onun səfirinə Qəzvinə getməyə icazə xahiş edilirdi. Bu icazə ona verildi. Həmin dövrdə Moskvada olan Səfəvi səfiri ilə o, sağ-salamat Qəzvinə gəldi. Lakin burada o, öz məqsədinə nail ola bilmədi, çünki həmin vaxt şah, Osmanlı dövləti ilə sülh müqaviləsi bağlamışdı və onun yazdığına görə, «xristianlara nifrət» edirdi. Ona görə də, Antoni Cenkinsonun İngiltərə və Azərbaycan Səfəvi dövləti arasında bilavasitə ticarət əlaqələrinin yaranması təklifini qəbul etmədi. Hər halda Cenkinson, ingilislərə gömrüksüz ticarət etmək hüququ verən Şirvan hakimi Abdulla xandan imtiyaz vərəqəsi almağa müvəffəq oldu. Xan öz səfirini Cenkinson ilə çar İvan Vasilyeviçin yanına, hər iki dövlətin rifahı naminə öz nümayəndələrini də göndərir [7, 98, 113]. O dövrdən başlayaraq sonrakı illərdə də, ingilis səfirlikləri Səfəvi sülaləsi ilə intensiv əlaqələr saxlayır, daha çox imtiyaz əldə etməyə çalışırdılar. Belə ki, 1564-cü ildə Tomas Olkok öz əməkdaşı Riçard Çini ilə Azərbaycana səfər etmişdi. Olkok Səfəvi ölkəsində öldürüldü, Çini isə geri döndü və Londonda ingilis ticarət kampaniyasına təklif etdi ki, Gilana vicdanlı və ayıq adamlar göndərilsin. Buna görə də, növbəti il Səfəvi ölkəsinə Riçard Conson, Aleksandr Kitç və Artur Edvards göndərildilər. Artur Edvards Osmanlı təhlükəsindən təşvişə düşən səfəvilərdən ingilislər üçün gömrüksüz ticarət etmək hüququ qazandı. Özünün məktublarında Edvards ingilislər üçün Volqa-Xəzər yolu ticarətinin əlverişli olmasını qeyd edir, çünki Səfəvilərə də ölkəsi vasitəsilə hind malları əldə etmək mümkün idi. Səfəvilərdə ticarət əlaqələrini gücləndirmək məqsədilə öz həmvətənlərinə Gilanda faktoriya (ticarət məntəqəsi) yaratmağı məsləhət görürdü. Növbəti ildə (1568) Edvards şahdan daha böyük imtiyaz əldə etdi. 1569-cu ildə Səfəvi ölkəsinə Tomas Benister, Ceferi Deket və Layonel Plemtri başda olmaqla ingilis səfirliyi göndərildi. Səfirliyin bəzi üzvləri Şərqdə yerləşən ölkələrə də soxulmağa çalışırdılar, lakin onların bu cəhdləri uğursuz idi, çünki Hindistan və Çin mallarının satışında vasitəçilik edir və qazandığı xeyiri itirmək istəmirdilər. Hindistana soxulmağa can atan Plemtri, şübhəsiz geri qaytarıldı. Çinə girməyə cəhd edən ingilislərin də aqibəti eyni oldu. Geri dönərkən ingilis səfirliyi Xəzər dənizində noqay tatarların, digər məlumatlara görə, kazakların hücumuna məruz qaldılar, səfirliyin gəmiləri dağıdıldı. İngilislərin əmlakının bir hissəsi Həştərxan voyevodu tərəfindən göndərilmiş dəstənin köməyi ilə geri alındı. Lakin bununla səfirliyin müsibətləri qurtarmadı. Yaroslavl yaxınlığında onların kiçik gəmilərini buz basıb sındırdı [3, 9-52]. Rusiya çarı İvan Vasilyeviç onların vəziyyətini dərk edərək, itkilərini ödədi. Lakin bu səfirliyin üzvlərindən biri olan Plemtri qeyd edir ki, səfirliyin təmiz gəliri o qədər böyük idi ki, bu itkilər əldə olunan gəlirin yanında heç nə idi. Lakin bundan sonra, on il müddətində ingilislər ilə Səfəvi dövləti arasında canlı ticarət əlaqələrində müəyyən fasilələr yarandı ki, bu da İrana və Azərbaycana gedən və son dərəcə çətin yolun itkiləri və təhlükə qorxusundan irəli gəlirdi. Əvvəllər qüvvədə olan hakim nöqteyi-nəzərinə görə, guya bu fasilə kraliça Yelizavetanın IV İvana ərə getməyə razı olmaması ilə, sonuncunun hiddətlənməsi kimi səciyyələndirilirdi.

Lakin Yuri Tolstoy bu iddianın əsassız olduğunu sübuta yetirdi [10, 14].

1579-cu ildə ingilislərin Səfəvi ölkəsinə qeyd olunan yolla yeni səfəri başlandı. Səfirlərin arasında bu səfəri təsvir edən Xristofor Borro, həmçinin Edvards var idi. Bu səfirlərin başına Səfəvi ölkəsinə çatana qədər çoxlu hadisələr gəldi, geri qayıdarkən onların gəmilərini buz sındırdı və onlar Həştərxana xüsusi göndərilmiş adamlar tərəfindən gətirildilər. Bu ingilislərin Rusiya ərazisindən Səfəvi ölkəsinə son səfəri oldu. Onların məqsədi ingilislərin Moskva dövləti vasitəsilə Səfəvi dövləti ilə bilavasitə güclü ticarət əlaqələri yaratmaq idi [10, 14].

İngilislərin səyahətnamələrində onların Rusiya vasitəsilə Azərbaycan və İranla tranzit ticarətinə necə səylə çalışmasını və onların buna necə nail olduğunu qeyd etdik. İngilis tacirlərinin Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu ilə Azərbaycanla ticarət əlaqələri qurması rus tacirlərinə ziyan vururdu. Qərb ilə Şərq ölkələri arasında ticarət əlaqələrində Volqa-Xəzər yolu ilə həyata keçirilən əlaqədə təbii vasitəçi olan ruslara, ingilislərin varlanmasını müşahidə etmək qalırdı. Başa düşüləndə ki, hətta ingilislərə himayə edən İvan Qroznı hökuməti Səfəvi-İngiltərə ticarətini ilk əlverişli anındaca əngəlləməyə səy göstərmişdi. Belə fürsət 1569-cu ildə ələ keçmişdi. Çar ilə ingilis tacirləri arasında anlaşılmazlıq nəticəsində onların əmlakı müsadirə edilmiş, özləri isə sıxıntıya məruz qalmışdılar. Anlaşılmazlığı aradan qaldırmaq məqsədi ilə 1571-1572-ci illərdə yenidən Moskvaya gələn Cenkinson xəzinəyə götürülmüş ingilis mallarının pulunu almağa, həmçinin, rüsum əvəzinə saxlanılmış bəzi malları da geri qaytarmağa müvəffəq olur [10, 14-15]. Artıq bu zaman ingilislərin Volqa-Xəzər yolu ilə ticarəti Moskva tərəfindən məhdudlaşdırılmışdı. Kazan və Həştərxana onlar çarın razılığı ilə gedə bilərdilər və gömrük rüsumunun yarısını verməli idilər. Təqdim etdiyimiz məlumatlarda İvan Qroznının dövründə ingilislərin Volqa-Xəzər ticarətini necə canfəşanlıqla ələ keçirməyə cəhd etdikləri göstərilmişdir. Ancaq Cenkinsonun isə bu dövrdə Rusiyanın Səfəvilərlə ticarətinin cüzi və məhdud olması haqqında dedikləri onun qeyri-səmimi olduğunu göstərir. Bunu onun həmvətəni Vilyam Parrinin dedikləri təkzib edir, o, deyir ki, çara Volqa yolu ilə çoxlu mallar gətirilir. Moskva ilə Səfəvi dövləti arasında daimi ticarət əlaqələri təsdiq edir ki, Moskvada bu dövrdə vaxtaşırı Səfəvi səfirləri olurdu. Rusiya səfiri ilə, yuxarıda qeyd olunduğu kimi, Cenkinson Qəzvinə yola düşmüşdü. Moskvaya qayıdarkən onunla Buxara, Urgənc və b. xanların elçiləri gəlmişdi. Onların hamısı çar tərəfindən çox mülayim qəbul edilmişdi [10, 15].

Volqada tatar xanlığının ələ keçirilməsi və beləliklə, Səfəvi dövləti və Şərqin digər ölkələrinə sərbəst yolun açılması onun adı ilə bağlı idi. Onun çarlığı dövründə Moskva ilə Səfəvi dövləti arasında Volqa-Xəzər yolu ilə ticarət əlaqələri mövcud olmuşdu. Lakin materialın məhdudluğu bu yolun əhəmiyyətinin, iki dövlət arasındakı qarşılıqlı əlaqələrin tam öyrənilməsinə imkan vermir.

Sultan Məhəmməd Xudabəndə 1588-ci ildə Hadi bəy adlı elçisini dostluq məktubu ilə Rusiya imperatoru Fyodor İvanoviçin sarayına göndərdi. Hadi bəy Səfəvi dövləti ilə Rusiya arasında dostluq və sülh müqaviləsi imzalamalı idi. O, hətta öz məqsədinə nail olmaq üçün Bakı və Dərbənd limanlarını da Rusiyaya verməyə hazır idi [11, IV-V, 1828, 1829]. IV İvan Qroznının ölümü (1584) və taxt-taca yeni çarın çıxmasından sonra Həştərxan voyevodalarına əmr edilir ki, Asiya ölkələrinə xəbər versinlər ki, «ticarət adamları Həştərxana gələ bilər və burada ticarət azaddır». 1589-cu ildə Qriqori Vasilçikov və 1594-cü ildə isə knyaz Zvenqorodski Moskvadan Səfəvi

sarayına səfir göndərilmişdi [6, 1, 4]. Bu dövrdən Moskva ilə Səfəvilər arasında səfirlik mübadiləsinin daimi olması bu iki dövlət arasında möhkəm əlaqələrin mövcud olduğunu göstərir.

### ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 869 s.
2. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
3. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980, 119 s.
4. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: Gənclik, 1985, 184 s.
5. Английские путешественники в Московском государстве. Перевод с английского Ю.В.Готье, Л.: Соц.ЭКГИЗ. 1937, 308 с.
6. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией / Под ред. И.И.Веселовского, Пб.: Лештуковская Партвая Скоропечатная П.О.Явлонского, 1892, 445 с.
7. Путешественники об Азербайджане / Составитель З.И.Ямпольский. В 2-х томах. Т. 1, Баку: Элм, 1961, 497 с.
8. Фехнер М.В. Торговля Русского государства со странами Востока в XVI веке. М.: Гос. из-во Культурно-просветительной литературы, 1956, 120 с.
9. Хлебников П.Х. Астрахань в старые годы. Спб, Лештуковская Партвая Скоропечатная П.О.Явлонского, 1907, 395 с.
10. Шпаковский А.Я. Торговля Московской Руси с Персией в XVI-XVII вв. / Сборник статей, Киев, типогр. Н.К.Чоколова, 1915, вып. VII, с. 1-54.
11. Nəsrullah Fəlsəfi. Zendeqane-ye Şah Abbas əvvəl. C. IV-V, Tehran, h. 1364, 1677-2102.


## ВЗАИМООТНОШЕНИЯ РОССИЙСКОГО И СЕФЕВИДСКОГО ГОСУДАРСТВ (XVI ВЕК)


### А.Б.БАХШАЛИЕВ


### РЕЗЮМЕ


Между Россией и Азербайджаном издавна существовали взаимосвязи не только в сфере торговли, но в сфере дипломатии. Азербайджанские торговцы и купцы вывозили из Азербайджана шёлк, пряности и другие товары, которые пользовались спросом на рынках в России. Кроме того, Азербайджан неоднократно оказывал финансовую помощь России в трудные для неё времена. В данной статье автор рассматривает историю зарождения дипломатических связей между Азербайджаном и Россией, их развитие в XVI веке. Развитие этих связей усиливало дружбу и взаимосотрудничество обоих государств.


## INTERRELATIONS BETWEEN RUSSIA AND AZERBAIJAN (XVI century)


### A.B.BAKHSHALIYEV


### SUMMARY


Relations between Russia and Azerbaijan interdependently existed both in trade and diplomacy. Azerbaijan merchants exported silk, spices and other goods from Azerbaijan which were in great demand in Russian markets. Besides, Azerbaijan multiply furnished a financial support for Russia in its challenging times. The article deals with the beginning of these relations and the history of their development.